

**Mirdamət Əziz**

## TANRI EŞİTMƏDİ DUALARIMI

Söz tapa bilmədim dediyi söz tək,
Tanrı eşitmədi dualarımı,
Çevirdi üzünü sevdiyim qız tək,
Tanrı eşitmədi dualarımı.

Sevinc pərdələri sazımda qaldı,
Neçə xoş diləyim, arzum da qaldı,
"Amin" deyəcəkdim, ağzımda qaldı,
Tanrı eşitmədi dualarımı.

Diktə eləsə də şeirlərimi,
Nura bələsə də şeirlərimi,
Hər gün dinləsə də şeirlərimi,
Tanrı eşitmədi dualarımı.

Haqqın qapısını döydü, qayıtdı,
Durna dəstəsini əydi, qayıtdı,
Səsim ulduzlara dəydi, qayıtdı,
Tanrı eşitmədi dualarımı.

Məni duymamaqda haqlımı oldu,
Yeri dinləməyən vaxtımı oldu,
Göyün pəncərəsi bağlımı oldu,
Tanrı eşitmədi dualarımı.

Həsrət gözlərimdə yazılı qaldı,
Ümid qoltuğuma qısılı qaldı,
Əlim göy üzündən asılı qaldı,
Tanrı eşitmədi dualarımı.

Arzudan xalılar toxudu bəlkə,
Günlərim gül-çiçək qoxudu bəlkə,
Baxıb gözlərimdən oxudu bəlkə,
Tanrı eşitmədi dualarımı.

## NOSTALGİYA

Kədər ələndikcə kədər üstünə
Oyur ürəyimi dərd – ağacdələn,
Nə sən asimansan, nə də mən Günəş
Qürubdan qovasan, üfüqdən gələm.

Hicran aralığa düşdü sədd kimi,
Qəhər gecə-gündüz boğacaq səni,
Çıxacam əlindən son fürsət kimi
Yoxluğum yandırıb-yaxacaq səni.

## ARZULAR

Söz əhliyəm, tanrı mənə
Sözüm qədər ömür versin,
İlhamıma, çox demirəm,
Özüm qədər ömür versin.

Qayıdıram o çağıma,
Qəm atılır qucağıma,
Rəhm eləsin, ayağıma
İzim qədər ömür versin.

Özü görür: hücrəm soyuq,
Divarları oyuq-oyuq,
Ocağıma, nə az, nə çox,
Közüm qədər ömür versin.

Olub dərdimə aşina
Fələk çıxmasın qarşıma:
Günah deyilmi, yaxşıma
Pisim qədər ömür versin?!
Edək təzim sevgimizə -
Nur dənizi sevgimizə,
Allah bizim sevgimizə
Bizim qədər ömür versin.

## ÖLÜM VAR NÖQTƏDİ, ÖLÜM VAR-VERGÜL

Oldum kədər şahı, qəm yığa-yığa,
Qəlbimin nisgili min qəlbə sığar
Ürəyim əbədi bir rahatlığa
Yetəcək məzara qoyulanda mən.

Qəfil tərpədəcək dərd sarı simi,
Dağlar boylanacaq karıxmış kimi,
Quşlar qan qoxulu nəğmələrimi
Ötəcək məzara qoyulanda mən.

Ölüm var nöqtədi, ölüm var vergül,
Çən kimi çökəcək gözümə mürgü,
Hər şerim çevrilib olacaq bir gül.
Bir çiçək, məzara qoyulanda mən.

Səma mələkləri, yer kənizləri,
Doldurun badəmə göy dənizləri,
Üzümdən-gözümdən dərdin izləri,
Gedəcək, məzara qoyulanda mən.

Əcdadlar əlinə yetişmir əlim,
Girib aramıza amansız ölüm,
Beşikdən başlanan ömür-gün yolum,
Bitəcək məzara qoyulanda mən.



Kaspi.-2017.-4-6 fevral.